Qazaxıstanın Elm və Təhsil Nazirliyi, Almatı Fizika-riyaziyyat təmayüllü “İstedadlar” liseyi, “DARİN” elm mərkəzi tərəfindən təşkil olunan olimpiadada 15 ölkədən 57 komanda iştirak edib. Tədbirdə Azərbaycan 19 nəfərdən ibarət 3 komanda ilə təmsil olunub.

400-dək şagirdin qatıldığı olimpiadada şagirdlər komandalar şəklində riyaziyyat, fizika və informatika fənləri üzrə yarışıblar. Azərbaycan məktəbliləri riyaziyyat və fizika fənləri üzrə uğurlu nəticələr göstəriblər.

Riyaziyyat fənni üzrə keçirilən olimpiadada Bakı “İstək” liseyinin X sinif şagirdi Məhəmməd Şirinov II yeri tutaraq gümüş, Quba “İstək” liseyinin X sinif şagirdi Tahir Nadirov III yeri tutaraq bürünc medal qazanıblar. Fizika fənni üzrə olimpiadada Quba “İstək” liseyinin IX sinif şagirdi Səbuhi Mikayılov III yerə çıxaraq bürünc medala layiq görülüb.

Qeyd edək ki, "İstək" liseyi Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş tədris planı əsasında, beynəlxalq proqramlar əlavə olunmaqla fəaliyyət göstərir və müntəzəm olaraq şagirdlərin bilik və məntiq olimpiadalarında iştirakını təmin edir.